## HÜQUQ

**UOT 343.1**

# CİNAYƏT PROSESİNDƏ ZƏRƏR ÇƏKMİŞ ŞƏXSİN ANLAYIŞI BARƏDƏ MÜLAHİZƏLƏR

**M.S.QƏFƏROV**
***Bakı Dövlət Universiteti***
***msqafarov@mail.ru***

*Zərər çəkmiş şəxsin hüquqi vəziyyəti və onun hüquqlarının təminatı cinayət mühakimə icraatının həm nəzəri, həm də təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edən məsələlərindəndir. Bununla belə, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin müxtəlif maddələrində zərər çəkmiş şəxs kateqoriyasından müxtəlif mənalarda, daha dəqiq desək, bəzən prosessual-hüquqi, bəzən cinayət-hüquqi, bəzən isə eyni bir maddə daxilində hər iki mənada istifadə edilir. Məqalədə bu amilin təcrübədə hüquqi qeyri-müəyyənlik yaratması faktı əsaslandırılır. Müəllif zərər çəkmiş şəxs anlayışının müxtəlif aspektlərini təhlil etməklə ayrı-ayrı maddələrdə həmin terminlə ifadə edilən subyektin hüquqi təbiətinə aydınlıq gətirir. Məqalədə AR CPM-in ayrı-ayrı maddələrinin doktrinal şərhi verilir.*

**Açar sözlər:** cinayət prosesi, zərər çəkmiş şəxs, terminologiya, hüquqi qeyri-müəyyənlik, təhlil, doktrinal şərh

Cinayət əməlindən zərər çəkmiş şəxslərin hüquq və qanuni maraqlarının təmin edilməsi cinayət mühakimə icraatının həm nəzəri, həm də təcrübi cəhətdən mühüm əhəmiyyət kəsb edən, o cümlədən, beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzində olan məsələlərdəndir. Hal-hazırda zərər çəkmiş şəxsin hüquqi vəziyyətinin tənzimlənməsində qeyri-müəyyənliklərin mövcud olması, eləcə də, onun hüquqlarının prosessual-hüquqi təminat mexanizmlərin ya ümumiyyətlə olmaması, yaxud da bu hüquqların təminatına və realizəsinə yönəlmiş mövcud mexanizmlərdə kifayət qədər catışmazlıqların olması, fikrimizcə, bu sahədə cinayət-hüquqi və cinayət-prosessual hüquqi siyasətin geniş miqyasda dəyişdirilməsinin zəruriliyinə dəlalət edir. Bu məqalədə bütövlükdə qaldırılan məsələlərin təhlil edilməsi qarşıya məqsəd kimi qoyulmadığı üçün, yalnız zərər cəkmış şəxsin anlayışı ilə bağlı bəzi mülahizələri diqqətə catdırmağı məqsə-

dəmüvafiq hesab edirik. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin müxtəlif maddələrində zərər çəkmiş şəxs kateqoriyasından müxtəlif mənalarda, daha dəqiq desək, bəzən prosessual-hüquqi, bəzən cinayət-hüquqi, bəzən isə eyni bir maddə daxilində hər iki mənada istifadə edilir. Bu amil təcrübədə hüquqi qeyri-müəyyənlik yaradır. Odur ki, nəzəriyyədə zərər çəkmiş şəxs anlayışının müxtəlif aspektlərinin təhlil edilməsinə və bununla da, ayrı-ayrı maddələrdə həmin terminlə ifadə edilən subyektin hüquqi təbiətinə aydınlıq gətirilməsinə ehtiyac duyulur. Fikrimizcə, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin müxtəlif maddələrində zərər çəkmiş çəxs kateqoriyasından müxtəlif mənalarda, yəni ya prosessual-hüquqi, ya cinayət-hüquqi, yaxud da eyni bir maddə daxilində hər iki mənada istifadə edilməsinin bariz nümunələri kimi AR CPM-in 12.2, 87.2 və 106.1-ci maddələrini göstərmək olar. Bu səbəbdən həmin maddələrin doktrinal şərhini verməklə, zərər çəkmiş şəxs termini ilə hansı maddədə kimlərin nəzərdə tutulduğuna aydınlıq gətirməyi mümkün hesab edirik. Düşünürük ki, qeyd edilən maddələrin şərh edilməsi üçün aşağıdakı məsələlərə aydınlıq gətirilməlidir.

Hesab edirik ki, CPM-in normalarında zərər çəkmiş şəxsin anlayışı ilə bağlı hüquqi qeyri-müəyyənliyin yaranmasının səbəblərindən biri CPM-in 87-ci maddəsində zərər çəkmiş şəxsə cinayət-prosessual anlamda deyil, cinayət hüquqi anlamda anlayış verilməsidir. CPM-in 87.1-ci maddəsində göstərilir ki, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində (burada cinayət nəzərdə tutulur – M.S. Qəfərov) fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda, o, zərər çəkmiş şəxs qismində tanınır. CPM-in 87.3-cü maddəsində də eyni cinayət hüquqi kateqoriyadan istifadə edilir – cinayət nəticəsində mənəvi və ya maddi ziyan dəymiş hüquqi şəxs zərər çəkmiş şəxs qismində tanına bilər.

Maraqlıdır ki, müasir milli hüquqi doktrina da qüvvədə olan cinayət-prosessual qanunvericiliyin mövqeyini olduğu kimi təkrar edir. Belə ki, M.Ə. Cəfərquliyev «Azərbaycan Respublikasının cinayət prosesi» dərsliyində qeyd edir ki, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda, o, zərər çəkmiş şəxs qismində tanınır. F.M. Abbasova isə, «Cinayət prosesi» dərsliyində göstərir ki, zərər çəkmiş şəxs cinayət əməli nəticəsində mənəvi, fiziki və ya maddi ziyan çəkmiş fiziki, yaxud mənəvi və ya maddi ziyan dəymiş hüquqi şəxsdir. Cinayət-Prosessual Məcəlləsinin kommentariyasında da qüvvədə olan qanunvericiliyin mövqeyi təkrarlanır [1, 202; 4, 219; 5, 197].

Göründüyü kimi, zərər çəkmiş şəxsə cinayət nəticəsində bu və ya digər formada ziyan dəymiş şəxs kimi anlayış verməklə, CPM-in 87-ci maddəsi zərər çəkmiş şəxsin maddi hüquqi anlayışını müəyyən etmiş olur, əslində isə, CPM zərər çəkmiş şəxsin cinayət mühakimə icraatının iştirakçısı kimi prosessual hüquqi anlayışını müəyyən etməli idi. Bu zaman əsas diqqət ona yönəlməlidir ki, prosessual anlamda şəxsin zərər çəkmiş şəxs statusu əldə etməsi üçün cina-

yət prosesini həyata keçirən orqan tərəfindən müvafiq qərarın qəbul edilməsi vacibdir, cinayət-hüquqi anlamda isə, zərər çəkmiş şəxs dedikdə, cinayətdən faktiki zərər çəkmiş şəxs başa düşülür.

Məsələn, AR CPM-də zərər çəkmiş şəxsə verilmiş anlayışla təqsirləndirilən şəxsə verilmiş anlayış arasında paralel iş aparsaq, görərik ki, CPM-in 91.1-ci maddəsinə əsasən, müstəntiqin, prokurorun və ya məhkəmənin təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxardığı fiziki şəxs təqsirləndirilən şəxs kimi tanınır. Aşkardır ki, CPM-in 87-ci maddəsi zərər çəkmiş şəxsə maddi hüquqi, təqsirləndirilən şəxsə isə sırf prosessual hüquqi anlayış vermişdir. Bu məsələyə xarici hüquq ədəbiyyatında da diqqət yetirilir [8, 28-29; 10].

Lakin zərər çəkmiş şəxs anlayışının dərk edilməsində yeganə problem CPM-in 87-ci maddəsində ona maddi hüquqi anlayışın verilməsi deyildir. Məsələ burasındadır ki, həm CPM-in, həm də CM-in bütün məzmununun təhlil edilməsi belə qənaətə gəlməyə əsas verir ki, bu aktların hər ikisində, ümumiyyətlə, «zərər çəkmiş şəxs» kateqoriyasına ikili mənada – eyni zamanda həm maddi, həm də prosessual mənada yanaşma tətbiq edilir.

Məsələn, əgər CM-in 61.1.9-cu maddəsi kontekstində (cinayətin zərər çəkmiş şəxsə qarşı xüsusi amansızlıqla, o cümlədən, əzab və ya işgəncə verməklə törədilməsi) zərər çəkmiş şəxs dedikdə, cinayətdən cinayət hüquqi mənada faktiki zərər çəkmiş şəxs başa düşülürsə (bu zaman həmin şəxs barəsində müvafiq prosessual qərarın qəbul edilmiş olması əhəmiyyət kəsb etmir), CM-in 298-ci maddəsi kontekstində (şahidin və ya zərər çəkmiş şəxsin ifadə verməkdən imtina etməsi) zərər çəkmiş şəxs dedikdə, artıq prosessual-hüquqi mənada ittiham tərəfinə məxsus konkret prosessual fiqur, barəsində müvafiq prosessual qərar qəbul edilmiş şəxs başa düşülür. Eləcə də, CPM-in normalarında zərər çəkmiş şəxs anlayışından həm maddi-hüquqi, həm də prosessual hüquqi mənalarda istifadə edilir. Məsələn, CPM-in 37.3-cü maddəsinə əsasən, ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında <…> həyata keçirilir. Göründüyü kimi, normada «zərər çəkmiş şəxsin şikayəti» ifadəsindən istifadə edilməsinə baxmayaraq, nəzərə almaq lazımdır ki, şəxs həmin şikayəti verdiyi anda o, hələ prosessual mənada zərər çəkmiş şəxs statusuna malik olmur, deməli, bu normanın prosessual-hüquqi norma olmasına baxmayaraq, onun məzmununda «zərər çəkmiş şəxs» kateqoriyasından maddi hüquqi kateqoriya kimi istifadə edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində «zərər çəkmiş şəxs» kateqoriyasına münasibətdə belə bir vəziyyət mülki və mülki-prosessual qanunvericilikdə də mövcuddur. Belə ki, həm MM-də, həm də MPM-də «zərər çəkmiş şəxs» anlayışından istifadə edilir və məsələn, MM-in 557-ci və ya 1121-ci maddələrində «zərər çəkmiş şəxs» kateqoriyasından maddi-hüquqi mənada istifadə edilirsə, MPM-in 355-3.2-ci maddəsində «zərər çəkmiş şəxs» kateqoriyasından prosessual mənada istifadə edilir.

Fikrimizcə, son qeyd edilən məsələdə Rusiya Federasiyasının qanunvericilik təcrübəsi diqqətəlayiqdir. Belə ki, RF MM-in bir sıra maddələrində «zərər çəkmiş şəxs» anlayışından istifadə edilir (məsələn, 179, 1064, 1065, 1072 və s.), lakin RF MPM-də artıq bu anlayışdan istifadə edilmir, bunun əvəzinə «iddiaçı» anlayışı tətbiq edilir (RF MPM-in 38-ci maddəsinin 2-ci hissəsi). Belə olan halda, anlayışların mahiyyətinin dərk edilməsi xeyli asanlaşır, belə ki, «zərər çəkmiş şəxs» dedikdə, mülki-hüquqi məna, «iddiaçı» dedikdə isə, mülki-prosessual hüquqi mənanın kəsb edildiyi aydın olur. Təəssüf ki, nə AR-in, nə də RF-nin özünun cinayət və cinayət-prosessual qanunvericiliklərində zərər çəkmiş şəxsin cinayət hüquqi və cinayət-prosessual-hüquqi anlamlarını bir-birindən fərqləndirə biləcək differensiasiya edilmiş anlayışlardan istifadə edilməmişdir [10].

Xatırlatmaq istərdik ki, hələ Müstəqil Dövlətlər Birliyinin üzv dövlətlərinin Parlamentlərarası Assambleyasının qərarı ilə 17 fevral 1996-cı ildə Sankt-Peterburq şəhərində qəbul edilmiş MDB dövlətləri üçün Model CPM-də bu məsələ kifayət qədər maraqlı şəkildə öz həllini tapmışdı. Belə ki, Model CPM-də iki fərqli kateqoriyadan – «ziyan dəymiş şəxs» və «zərər çəkmiş şəxs» anlayışlarından istifadə edilirdi. Model CPM-in 89-cu maddəsinin 1-ci hissəsində qeyd edilirdi ki: «Təhqiqat orqanına, məhkəməyə, prokurora, müstəntiqə, təhqiqatçıya cinayət qanunu ilə qadağan edilmiş əməllə ona mənəvi, fiziki və ya əmlak ziyanının vurulduğu, onun barəsində cinayət qanunu ilə qadağan edilmiş əməlin törədilməsinə hazırlıq və ya törədilməsinə cəhd haqqında şikayət vermiş hər bir fiziki və ya hüquqi şəxs ziyan vurulmuş şəxs hesab edilir». Model CPM-in 90-cı maddəsinin 1-ci hissəsində isə deyilirdi ki: «Barəsində cinayət qanunu ilə qadağan edilmiş əməllə bilavasitə mənəvi, fiziki və ya əmlak ziyanının vurulduğunu ehtimal etməyə kifayət qədər əsas olan fiziki şəxs zərər çəkmiş şəxs hesab edilir». Fikrimizcə, Model CPM-də cinayətdən faktiki zərər çəkmiş şəxs barəsində müvafiq prosessual qərarın (yəni zərər çəkmiş şəxs qismində tanıma haqqında qərarın) qəbul edilməsinə qədər onun prosessual statusunun dəqiq fərqləndirilməsi üçün «ziyan dəymiş şəxs» kateqoriyasından istifadə edilməsi kifayət qədər ağlabatan olmuşdur.

Cinayətdən zərər çəkmiş şəxs anlayışı cinayət-hüquqi anlayışdır. Bu anlayışın maddi-hüquqi təbiəti onunla şərtlənir ki, cinayət zərər çəkmiş şəxsə konkret növdə ziyan vurur, başqa sözlə, zərər çəkmiş şəxs anlayışının cinayət qanunu ilə əlaqəsi «cinayət» və «ziyan» kateqoriyaları vasitəsilə yaranır. Zərər çəkmiş şəxsin cinayət-hüquqi statusunun məzmununu onun cinayət törədilənədək olduğu vəziyyətinin bərpa edilməsinə dair subyektiv hüququ və cinayət qanunu ilə nəzərdə tutulmuş bir sıra digər hüquqları təşkil edir.

Diqqətə almaq lazımdır ki, cinayət qanunu zərər çəkmiş şəxsin anlayışını vermir. «Zərər çəkmiş şəxs» anlayışından normativ səviyyədə ilk dəfə 24 noyabr 1864-cü il tarixli Cinayət mühakimə icraatı Nizamnaməsində istifadə edilmişdir. 1923-cü il tarixli Azərbaycan SSR-in ilk CPM-də «zərər çəkmiş şəxs» terminindən istifadə edilsə də, onun anlayışı verilmirdi. 1961-ci il tarixli

Azərbaycan SSR-in CPM-in 49-cu maddəsi isə, zərər çəkmiş şəxsə normativ anlayış verirdi. Həmin maddənin 1-ci hissəsinə əsasən, cinayətin mənəvi, fiziki və ya əmlak zərəri vurduğu şəxs zərər çəkmiş şəxs hesab olunurdu. Maddənin 2-ci hissəsində isə qeyd edilirdi ki, zərər çəkmiş şəxs kimi tanınma təhqiqat aparan şəxsin, müstəntiqin qərarı, yaxud məhkəmənin qərardadı ilə olur. Sovet dövrünün nəzəri mənbələrində də qanunvericiliyin mövqeyi dəsdəklənirdi [6, 76]. Bu anlayışın genezisindən göründüyü kimi, onun, hər şeydən əvvəl, cinayət-hüquqi kateqoriya olmasına baxmayaraq, həmin terminin anlayışı cinayət qanununda deyil, cinayət-prosessual qanunda verilmişdir. Fikrimizcə, «zərər çəkmiş şəxsin» anlayışı ilə bağlı qeyri-müəyyənlik yaranmasının səbəblərindən biri məhz bundan ibarətdir.

Konstitusion-hüquqi normalar arasında zərər çəkmiş şəxslə bağlı aşağıdakı müddəaları qeyd etmək mümkündür. AR Konstitusiyasının 68-ci maddəsinin (zərərin ödənilməsini tələb etmək hüququ) I hissəsinə əsasən, cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır. AR Konstitusiyasının 71-ci maddəsinə (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) əsasən Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz… Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz… Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir… İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

Qeyd edilənlərlə yanaşı, vurğulamaq lazımdır ki, nəzəriyyədə «zərər çəkmiş şəxs» kateqoriyasının eyni zamanda həm cinayət-hüquqi, həm də prosessual-hüquqi mənalarda başa düşülməsi istisna edilmir. Nəzərə almaq lazımdır ki, «zərər çəkmiş şəxs» kateqoriyasının cinayət-hüquqi və prosessual hüquqi mənalarda funksiyaları fərqlidir. Belə demək olar ki, zərər çəkmiş şəxsin prosessual-hüquqi anlayışı, onun cinayət-hüquqi anlayışından törəmədir, zərər çəkmiş şəxsin cinayət-hüquqi anlamda anlayışı hər zaman ilkinlik, birincilik xüsusiyyətinə malikdir.

Zərər çəkmiş şəxsin hüquqi statusu, onun bu qismdə tanınmasından deyil, onun faktiki vəziyyətindən asılıdır. Zərər çəkmiş şəxs qismində tanıma haqqında qərar qəbul edilərkən şəxsin faktiki statusu yaradılmış deyil, rəsmiləşdirilmiş olur. Cinayətdən ziyan görmüş şəxs yalnız onun zərər çəkmiş şəxs qismində tanınmasından sonra müəyyən hüquqlara sahib olmur, onun bu ana qədər də müəyyən hüquqları mövcud olur. Bu zaman cinayətdən faktiki zərər çəkmiş şəxs «ərizəçi» kimi hüquq-mühafizə orqanlarına müraciət etmək, müraciətinin rəsmiləşdirilməsini tələb etmək, müraciətinə baxılması ilə

əlaqədar xahişlər etmək, müraciətə baxılmanın nəticələri barədə məlumat almaq və s. hüquqlara malikdir.

«Zərər çəkmiş şəxs» kateqoriyasının cinayət-hüquqi anlayışının həm nəzəriyyə, həm də təcrübə üçün əhəmiyyəti aşağıdakı amillərlə şərtlənir:

Birincisi, zərər çəkmiş şəxsin bir fiqur kimi özünün müstəqil əhəmiyyəti vardır, çünki o, cinayət-hüquq münasibətlərinin subyekti kimi çıxış edir, subyektiv hüquqlara malik olur, vəzifələr daşıyır, cinayət-hüquq münasibətlərinin digər subyektləri ilə – cinayət törətmiş şəxslə, dövlətlə qarşılıqlı əlaqəyə girir.

İkincisi, zərər çəkmiş şəxs cinayət tərkibinin əlamətlərindən biri kimi çıxış edir, yəni o, həm də cinayət məsuliyyətinin əsasının tərkib hissəsidir.

Üçüncüsü, zərər çəkmiş şəxsin əlamətləri Cinayət Məcəlləsinin Xüsusi hissəsinin normalarının dispozisiyasında tez-tez qeyd edilir ki, bunun nəticəsində, bəzən zərər çəkmiş şəxsin əlamətləri əməlin cinayət kimi tövsif edilməsinə öz təsirini göstərir.

Dördüncüsü, qanunda cinayət törətmiş şəxsin zərər çəkmiş şəxsə münasibətdə bir sıra postkriminal davranışına görə müxtəlif hüquqi nəticələr müəyyən edilir. Məsələn, qanunda zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsinə.

1) cinayət məsuliyyətindən azad etmə əsası kimi (AR CM-in 72-ci maddəsinə əsasən, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs … cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yollarla aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər);

2) tərbiyəvi xarakterli məcburi tədbirlərin məzmun elementi kimi (AR CM-in 87.3-cü maddəsinə əsasən, vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsi yetkinlik yaşına çatmayanın əmlak vəziyyəti və müvafiq əmək vərdişlərinə malik olması nəzərə alınmaqla onun üzərinə qoyulur);

3) cəzanı yüngülləşdirən hal kimi (AR CM-in 59.1.10-cu maddəsinə əsasən, <…> cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması, <…> zərər çəkmiş şəxsə dəymiş zərərin azaldılmasına yönəldilmiş digər hərəkətlərin edilməsi <…> cəzanı yüngülləşdirən hallardır) baxılır.

Beşincisi, zərər çəkmiş şəxsin bəzi xarakteristikaları tövsifedici əlamət kimi çıxış edir (məsələn, təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını öldürmə – AR CM-in 120.2.8-ci maddəsi).

Altıncısı, zərər çəkmiş şəxsin bəzi əlamətləri cəzanı ağırlaşdıran hal kimi nəzərdə tutulur:

– cinayətin müqəssir üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya müqəssirdən asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi (AR CM-in 61.1.7-ci maddəsi);

– cinayətin öz qulluq və ya ictimai borcunu yerinə yetirən şəxsə və ya onun yaxın qohumlarına qraşı törədilməsi (AR CM-in 61.1.8-ci maddəsi)

– cinayətin zərər çəkmiş şəxsə qarşı xüsusi amansızlıqla, o cümlədən əzab və ya işgəncə verməklə törədilməsi (AR CM-in 61.1.9-cu maddəsi).

Yeddincisi, zərər çəkmiş şəxsin müsbət (ictimai baxımdan) davranışının cinayət məsuliyyətinin differensiasiyası və cəzanın fərdiləşdirilməsi üçün əhəmiyyəti vardır. Belə ki, qanunda zərər çəkmiş şəxsin müsbət davranışına:

1) tövsifedici əlamət kimi (məsələn, zərər çəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə – AR CM-in 120.2.3-cü maddəsi);

2) xüsusi tərkiblərin struktur elementi kimi (məsələn, dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə – AR CM-in 277-ci maddəsi);

3) cəzanı ağırlaşdıran hal kimi (məsələn, cinayətin öz qulluq və ya ictimai borcunu yerinə yetirən şəxsə və ya onun yaxın qohumlarına qarşı törədilməsi – AR CM-in 61.1.8-ci maddə) kimi baxılır.

Səkkizincisi, zərər çəkmiş şəxsin mənfi davranışı da cinayət repressiyasına – cinayət məsuliyyətinin differensiasiyasına və cəzanın fərdiləşdirilməsinə yüngülləşdirici istiqamətdə təsir edir. Zərər çəkmiş şəxsin mənfi davranışına qanunda:

1) cəzanı yüngülləşdirən hal kimi (məsələn, cinayətin zərər çəkmiş şəxsin qanunsuz və ya əxlaqsız hərəkətlərinin təsiri altında və ya bu hərəkətlər nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində törədilməsi – AR CM-in 59.1.8-ci maddəsi);

2) «imtiyazlı» tərkiblərin elementi kimi (məsələn, AR CM-in 122, 123, 129, 130-cu maddələrində nəzərdə tutulan tərkiblər) baxılır.

Doqquzuncusu, zərər çəkmiş şəxsin ona ziyan vurulmasına razılıq verməsi, yaxud bunu xahiş etməsi cinayət qanununa görə əməlin cinayət olmasını aradan qaldırmır, onun özu-özünə ziyan vurması isə törədilmiş əməlin digər şəxsin, dövlətin və ya cəmiyyətin maraqlarına toxunduğu hallarda müvafiq hüquqi nəticə doğurur (məsələn, öz sağlamlığına zərər vurmaqla hərbi xidmətdən boyun qaçırma cinayət hesab edilir – AR CM-in 335-ci maddəsi).

Onuncusu, zərər çəkmiş şəxsə təqsirkar şəxsin barışmasına görə qanunda xüsusi hüquqi nəticə – məsuliyyətdən azad etmə nəzərdə tutulur. AR CM-in 73-cü maddəsinə əsasən, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərər çəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər.

Nəhayət, nəzərə almaq lazımdır ki, cəzanın məqsədlərindən biri sosial ədalətin bərpa edilməsidir və sosial ədalətin bərpasını, ilk növbədə, zərər çəkmiş şəxs hiss etməlidir, deməli, cəzanın təyin edilməsi zamanı zərər çəkmiş şəxsin maraqları nəzərə alınmaya bilməz [7, 33-41].

Zərər çəkmiş şəxs kateqoriyasının cinayət-hüquqi və cinayət-prosessual hüquqi anlamlarda anlayışlarının həm oxşar, həm də fərqli əlamətləri mövcuddur.

Onların oxşar əlamətlərinə aiddir:

1) zərər çəkmiş şəxsin təbiəti – belə ki, hər iki anlamda zərər çəkmiş şəxs həm fiziki, həm də hüquqi şəxs ola bilər;

2) zərər çəkmiş şəxsi müəyyən edən əlamət – cinayət əməli nəticəsində ziyanın birbaşa vurulması;

3) hər iki anlamda zərər çəkmiş şəxs cinayətlə ziyan vurulmuş şəxsdir.

Onların fərqli əlaməti isə, ondan ibarətdir ki, zərər çəkmiş şəxs kateqoriyasının cinayət hüquqi anlayışı cinayət-prosessual anlayışına münasibətdə həm genezis, həm də zaman etibarı ilə ilkinlik, birincilik xarakterinə malikdir. Belə ki, cinayət hüququnda zərər çəkmiş şəxs cinayətin törədilməsi nəticəsində obyektiv olaraq meydana çıxır. Cinayət hüququnda zərər çəkmiş şəxsin meydana çıxması ona ziyan vurulmasının müəyyən edilib-edilməməsindən, onun zərər çəkmiş şəxs qismində tanınıb-tanınmamasından, bunun zəruri prosessual formada həyata keçirilib-keçirilməməsindən asılı deyildir. Cinayət prosesində isə zərər çəkmiş şəxsin tanınması müəyyən bir etapı əhatə edir və iş üzrə mövcud olan sübutların məcmusundan asılıdır. Cinayət prosesində zərər çəkmiş şəxs kimi bir fiqur yalnız bu barədə müvafiq prosessual qərar qəbul edildikdən sonra meydana çıxır və bu qərarın qəbul edildiyi andan etibarən müvafiq şəxs zərər çəkmiş şəxs üçün nəzərdə tutulmuş prosessual hüquqlardan istifadə edir, prosessual vəzifələr (məsuliyyət) daşıyır. Şəxsin zərər çəkmiş şəxs statusu almasının maddi-hüquqi əsası cinayətin real olaraq törədilməsi faktıdırsa, prosessual əsası cinayətin törədilməsi faktının müəyyən edilməsidir. Zərər çəkmiş şəxsin cinayət hüququnda və cinayət prosesində meydana çıxma əsasları fərqlidir.

«Zərər çəkmiş şəxs» kateqoriyası cinayət hüququ və cinayət-prosessual anlamlarda fərqlidir. Cinayət hüququnda zərər çəkmiş şəxs elə fiziki şəxsdir ki, ona qəsd etmə yolu ilə cinayətin obyektinə zərər vurulur. Zərər çəkmiş şəxs anlayışı cinayət hüquqi və cinayət-prosessual hüquq baxımından eynimənalı anlayış deyildir. Bu özünü daha aydın şəkildə, məsələn, konkret bir şəxsin öldürüldüyü halda göstərir – bu zaman cinayət hüquqi baxımdan zərər çəkmiş şəxs öldürülmüş şəxsin özüdürsə, cinayət-prosessual baxımdan zərər çəkmiş şəxslər öldürülənin yaxın qohumları olacaqdır.

Zərər çəkmiş şəxs anlayışından kriminologiyada da istifadə edilir. Kriminologiyada (viktimologiya hissəsində) zərər çəkmiş şəxsin və ya qurbanın anlayışına böyük əhəmiyyət verilir. Kriminologiyada zərər çəkmiş şəxs və qurban anlayışları çox zaman sinonim kimi qəbul edilir. Kriminologiyada cinayətlə birbaşa və ya dolayı yolla ziyan vurulmuş şəxs və ya şəxslər birliyi zərər çəkmiş, qurban hesab edilir. Bununla belə, kriminologiyada zərər çəkmiş şəxsin anlayışını cinayətin qurbanı kimi başa düşməyə cəhd göstərdikdə, şahidi olmaq mümkündür ki, bu anlayış, yəni cinayətin qurbanı dar və geniş mənalarda başa düşülə bilər. Dar mənada cinayətin qurbanı cinayətdən birbaşa və bilavasitə zərər çəkmiş şəxsdirsə, geniş mənada cinayətin qurbanı cinayətdən birbaşa və bilavasitə zərər çəkmiş şəxsin özü ilə yanaşı, onun yaxınları, cinayətdən dolayısı ilə və ya bilvasitə zərər çəkmiş digər şəxslər də başa düşülə

bilər. Hər bir halda cinayətin qurbanı anlayışı zərər çəkmiş şəxs anlayışından daha geniş anlayışdır, çünki maddi hüquqi anlayış kimi zərər çəkmiş şəxs anlayışı (cinayətin qurbanı anlayışından fərqli olaraq), zərər çəkmiş şəxsin cinayətdən dolayı yolla və ya bilvasitə ziyan çəkmiş yaxınlarını və qohumlarını əhatə etmir [9, 23-25].

Zərər çəkmiş şəxs anlayışından inzibati hüquqda da istifadə edilir. AR İXM-nin 372-ci maddəsi «zərər çəkmiş şəxs» adlanır. İXM-nin 372.1-ci maddəsinə əsasən, inzibati xəta nəticəsində mənəvi, fiziki və ya maddi zərər dəymiş şəxs zərər çəkmiş şəxs sayılır. İXM-nin 372.2-ci maddəsinə əsasən, zərər çəkmiş şəxsin aşağıdakı hüquqları vardır: inzibati xəta haqqında iş üzrə bütün materiallarla tanış olmaq; izahat vermək; sübutlar təqdim etmək; vəsatət və etirazlar vermək; hüquqi yardımdan istifadə etmək; iş üzrə qəbul edilmiş qərardan şikayət vermək. Göründüyü kimi, İXM-nin 371.1-ci maddəsi maddi hüquq norması – definitiv (anlayış müəyyən edən) norma kimi formulə edilmişdirsə, 371.2-ci maddəsi, artıq zərər çəkmiş şəxsin prosessual hüquqlarının sistemini müəyyən edir.

Cinayətin qurbanına anlayış vermiş beynəlxalq sənəd də mövcuddur. Belə ki, Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında BMT-nin Baş Assambleyası tərəfindən 1985-ci il noyabrın 29-da qəbul edilmiş Bəyannamənin 4-cü bəndində göstərilmişdir ki, qurbanlara (qurbanlar dedikdə milli cinayət qanunlarının pozulması nəticəsində bədən xəsarəti və ya mənəvi ziyan, emosional əzab, maddi zərər, yaxud əsas hüquqlarının xeyli dərəcədə sıxışdırılması daxil olmaqla fərdi, yaxud kollektiv şəkildə zərər yetirilən şəxslər başa düşülür) mərhəmət göstərmək və ləyaqətlərinə hörmətlə yanaşmaq lazımdır. Onlara ədalət mühakiməsinin vasitələrindən istifadə etmək və milli qanunvericiliyə əsasən dəymiş zərərin tezliklə ödənilməsini təmin etmək üçün şərait yaradılmalıdır.

Belə nəticəyə gəlmək olar ki, milli qanunvericilikdə normativ səviyyədə zərər çəkmiş şəxsin maddi və prosessual anlayışlarının fərqləndirilməsi üçün müxtəlif terminlərdən istifadə edilənə qədər, onlar yalnız hüququn tətbiqi təcrübəsində konkret normanın kontekstindən çıxış etməklə fərqləndirilə bilər. Başqa sözlə, CPM-in bu və ya digər normasında «zərər çəkmiş şəxs» termini ilə maddi mənada – faktiki vəziyyətinə görə cinayətdən ziyan çəkmiş şəxsin, yaxud prosessual mənada – barəsində müvafiq qərarın qəbul edildiyi şəxsin başa dülüşməli olması tətbiq edilən konkret prosessual normanın kontekstindən həll edilməlidir. Deməli, yalnız konkret hüquq norması kontekstindən CPM-in 12.2, 87.2 və 106.1-ci maddələrində «zərər çəkmiş şəxs» dedikdə, kimin başa düşülməli olması sualını cavablandırmaq olar.

I. CPM-in 12.2-ci maddəsində «zərər çəkmiş şəxs».

İlk növbədə, AR CPM-in 12-ci maddəsinin tam məzmununa nəzər salaq. Həmin maddənin (CPM-in 12-ci maddəsi «Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması» adlanır) müddəalarına əsasən, cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak

edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməlidirlər (CPM-in 12.1-ci maddəsi). Cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin CPM-də nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almağa hüququ vardır (CPM-in 12.2-ci maddəsi). Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır (CPM-in 12.3-cü maddəsi). Prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə əlaqədar şəxsin Konstitusiya ilə təsbit olunmuş hüquq və azadlıqlarının müvəqqəti məhdudlaşdırılması barədə qərar yalnız zərurət olduqda CPM ilə müəyyən edilmiş hallarda və qaydada qəbul edilə bilər (CPM-in 12.4-cü maddəsi). Cinayət təqibi gedişində insanların həyat və səhhətinə və ya ətraf mühitə təhlükə yaradan üsul və vasitələrdən istifadə etmək qadağandır (CPM-in 12.5-ci maddəsi). Cinayət prosesini həyata keçirən orqanlar insanların həyat və səhhətinə, ətraf mühitə təhlükə yaradan halları gizlətməyə haqlı deyillər (CPM-in 12.6-cı maddəsi).

Maraqlı bir məqamdır ki, CPM-in 12.2-ci maddəsində «zərər çəkmiş şəxs» termini eyni zamanda həm şəxsin faktiki vəziyyətinə görə maddi hüquqi anlamda, həm də yalnız sırf prosessual anlamda istifadə edilmişdir. Maddənin məzmununa nəzər salaq: «Cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və ya maddi ziyana görə kompensasiya almağa hüququ vardır».

Maddənin məzmununu şərti olaraq hissələrə bölsək, görərik ki, o, üç istiqamətdə hüquq müəyyən edir və bu hüquqların bir istiqaməti sırf maddi hüquqi anlamda, yəni faktiki vəziyyətinə görə zərər çəkmiş şəxsə, bir istiqaməti – qarışıq mənada, bir istiqaməti isə sırf prosessual anlamda, artıq rəsmən zərər çəkmiş şəxs kimi tanınmış şəxsə məxsusdur:

1) cinayət təqibinin başlanmasını tələb etmək – sırf faktiki vəziyyətinə görə, maddi hüquqi anlamda zərər çəkmiş şəxsə məxsus olan bir hüquqdur, çünki hələ başlanmamış cinayət təqibi üzrə prosessual mənada zərər çəkmiş şəxsin mövcud olması mümkün deyildir; bu hüquq cinayətdən faktiki olaraq zərər çəkmiş, lakin cinayət prosesinə hələ «zərər çəkmiş şəxs» qismində daxil olmamış şəxsə məxsusdur, onun, cinayət təqibinin başlanması tələbi səlahiyyətli dövlət orqanı tərəfindən müsbət istiqamətə həll edilənədək (təmin edilənədək) belə şəxsin prosessual mənada zərər çəkmiş kimi çıxış etməsi mümkün deyildir; onun faktiki statusu cinayətdən zərər çəkmiş şəxs statusu olmasa da, prosessual statusu ərizəçinin prosessual statusu ilə eyni olacaqdır;

2) zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etmək – bu hüququn hansı anlamda zərər çəkmiş şəxsə məxsus olduğunu birmənalı şəkildə demək çətindir, çünki «iştirak etmək» hüququ özü geniş anlayış olub, həm

«iştirakçı kimi tanınmaq» hüququnu, həm də «konkret subyektə məxsus hüquqlardan real istifadə etmək» hüququnu ehtiva edir. Bu zaman «iştirakçı kimi tanınmaq»dan söhbət gedərsə, cinayətdən zərər çəkmiş şəxs dedikdə, öz faktiki vəziyyətinə görə, maddi-hüquqi mənada cinayətdən zərər çəkmiş şəxs başa düşüləcəkdir, çünki belə şəxs hələ rəsmən zərər çəkmiş kimi tanınmamışdır və o, məhz bunun üçün səlahiyyətli orqana müraciət edərək iştirakçı kimi tanınmasını tələb edir (AR CPM-in 119-cu maddəsi). Yox, əgər söhbət «konkret subyektə (zərər çəkmiş şəxsə və xüsusi ittihamçıya) məxsus hüquqlardan real istifadə etmək»dən gedirsə, bu hüquq zərər çəkmiş şəxs dedikdə, prosessual qaydada müvafiq qismdə tanınmış proses iştirakçısından gedir, çünki şəxs AR CPM-in 87 və ya 88-ci maddələrində nəzərdə tutulmuş hüquqlardan yalnız onun barəsində müvafiq prosessual qərarın qəbul edilməsindən sonra istifadə edə bilər;

3) vurulmuş mənəvi, fiziki və ya maddi ziyana görə kompensasiya almaq – bu hüquq sırf prosessual anlamda, artıq rəsmən zərər çəkmiş şəxs kimi tanınmış şəxsə məxsusdur. Çünki AR CPM-in 189-cu maddəsinə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərər çəkmiş şəxs kompensasiya almaq hüququna o zaman malik olur ki, ona qarşı bu əməlin törədilməsi aşağıdakılarla müəyyən olunur: 1) məhkəmənin hökmü ilə; 2) cinayət prosesini həyata keçirən orqanın yekun qərarı ilə.

II. AR CPM-in 87.2-ci maddəsində «zərər çəkmiş şəxs».

AR CPM-in 87-ci maddəsi «Zərərçəkmiş şəxs» adlanır. Maddənin ümumi məzmununa diqqət yetirək. CPM-in 87.1-ci maddəsinə görə, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda o, zərər çəkmiş şəxs qismində tanınır. Törədilmiş cinayət nəticəsində zərər çəkmiş şəxs ölmüşsə, bu maddədə nəzərdə tutulmuş zərər çəkmiş şəxsin hüquqlarını onun yaxın qohumları həyata keçirirlər. Cinayət nəticəsində mənəvi və ya maddi ziyan dəymiş hüquqi şəxs zərər çəkmiş şəxs qismində tanına bilər. Belə halda bu maddədə nəzərdə tutulmuş zərər çəkmiş şəxsin hüquq və vəzifələrini hüquqi şəxsin müvəkkil edilmiş nümayəndəsi həyata keçirir (AR CPM-in 87.2 və 87.3-cü maddələri). Nəzərdən keçirilən maddənin sonrakı müddəalarına əsasən, təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən bu barədə qərar qəbul olunduğu andan şəxs zərər çəkmiş şəxs qismində tanınır. Cinayət işi başlanan anda şəxsi zərər çəkmiş şəxs qismində tanımağa əsaslar kifayət deyilsə, həmin qərar kifayət qədər əsaslar müəyyən edilən kimi dərhal qəbul olunur. Zərər çəkmiş şəxs qismində tanındıqdan sonra şəxsin zərər çəkmiş şəxs qismində qalmasına əsaslar olmadığı müəyyən edilərsə, təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə əsaslandırılmış qərarı ilə həmin şəxsin cinayət prosesində zərər çəkmiş şəxs qismində iştirakına xitam verir. Zərər çəkmiş şəxs şəxsən və ya nümayəndəsi vasitəsilə öz hüquqlarından istifadə edir və vəzifələrini yerinə yetirir. Yetkinlik yaşına çatmamış və ya fəaliyyət qabiliyyəti

olmayan zərər çəkmiş şəxsin hüquqlarını onun əvəzinə bu Məcəllədə nəzərdə tutulmuş qaydada qanuni nümayəndəsi həyata keçirir.

Göründüyü kimi, AR CPM-in 87.2-ci maddəsində deyilir: «Törədilmiş cinayət nəticəsində zərər çəkmiş şəxs ölmüşsə, bu maddədə nəzərdə tutulmuş zərər çəkmiş şəxsin hüquqlarını onun yaxın qohumları həyata keçirirlər». Maddə cinayət nəticəsində zərər çəkmiş şəxsin ölüm anını diferensiasiya etmir – faktiki zərər çəkmiş şəxs cinayətdən dərhal və ya qısa bir zaman sonra, hər bir halda həmin fakt üzrə prosessual icraat başlayana və şəxsin prosessual qaydada zərər çəkmiş şəxs kimi tanınmasına qədər də vəfat edə bilər, həmin fakt üzrə prosessual icraat başlayandan və şəxsin prosessual qaydada zərər çəkmiş şəxs kimi tanınmasından sonra da vəfat edə bilər. Birinci halda «törədilmiş cinayət nəticəsində ölmüş zərər çəkmiş şəxs» dedikdə, faktiki vəziyyətinə görə, maddi-hüquqi anlamda zərər çəkmiş şəxs, ikinci anlamda isə, «törədilmiş cinayət nəticəsində ölmüş zərər çəkmiş şəxs» dedikdə, barəsində müvafiq qərar çıxarılmış, prosessual vəziyyətinə görə – prosessual anlamda zərər çəkmiş şəxs başa düşüləcəkdir. Lakin qeyd etdik ki, CPM-in 87.2-ci maddəsi zərər çəkmiş şəxsin ölüm anını differensiasiya etmir, deməli belə bir şəxsin yaxın qohumlarının AR CPM-in 87-ci maddəsində nəzərdə tutulmuş zərər çəkmiş şəxsin hüquqlarından istifadə etməsi üçün həmin 87.2-ci maddədə «zərər çəkmiş şəxs» termininin maddi, yaxud prosessual anlamda ifadə edilməsini müəyyən etməyin heç bir əhəmiyyəti yoxdur. Başqa sözlə, AR CPM-in 87.2-ci maddəsi hər iki anlamda – həm maddi, həm də prosessual mənada çıxış edən «zərər çəkmiş şəxsin» yaxın qohumlarına münasibətdə davranış imkanı nəzərdə tutur.

III. AR CPM-in 106.1-ci maddəsində «zərər çəkmiş şəxs».

AR CPM-in 106-cı maddəsi «Zərər çəkmiş şəxsin hüquqi varisi» adlanır. Həmin maddənin müddəalarına əsasən, hadisə nəticəsində ölmüş zərər çəkmiş şəxsin hüquq və vəzifələrini cinayət işi üzrə icraat zamanı həyata keçirmək istəyini bildirən yaxın qohumlarından biri zərər çəkmiş şəxsin hüquqi varisi hesab olunur. Zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə mənəvi, fiziki və ya maddi ziyan vurmuş yaxın qohumu həmin zərər çəkmiş şəxsin hüquqi varisi hesab edilə bilməz. Zərər çəkmiş şəxsin yaxın qohumunun onun hüquqi varisi qismində tanınması haqqında qərarı həmin qohumun xahişi olduqda, cinayət prosesini həyata keçirən orqan qəbul edir. Bu zaman müvafiq xahişlə müraciət etmiş bir neçə yaxın qohum arasından zərər çəkmiş şəxsin hüquqi varisinin seçilməsində mübahisə olduqda həmin məsələni məhkəmə həll edir. Göstərilən xahişlə müraciət edilən anda şəxsin hüquqi varis qismində tanınması üçün kifayət qədər əsaslar olmadıqda, müvafiq qərar belə əsaslar müəyyən edildikdən dərhal sonra qəbul edilir. Şəxs zərər çəkmiş şəxsin hüquqi varisi kimi tanındıqdan sonra onun həmin qismdə qalması üçün əsasların olmadığı müəyyən edildikdə, cinayət prosesini həyata keçirən orqan əsaslandırılmış qərarı ilə bu şəxsin cinayət prosesində zərər çəkmiş şəxsin hüquqi varisi kimi iştirakına xitam verir. Zərər çəkmiş şəxsin hüquqi varisi cinayət işi üzrə icraatın hər hansı anında müvafiq səlahiyyətləri öz üzərindən götürə bilər.

Zərər çəkmiş şəxsin hüquqi varisi cinayət təqibi üzrə icraatda zərər çəkmiş şəxsin əvəzinə iştirak edir. Bu zaman o, zərər çəkmiş şəxsin ifadə vermək hüququndan və şəxsiyyətin ayrılmaz hüquqları istisna olmaqla, digər hüquqlardan istifadə edir və digər vəzifələr daşıyır. Zərər çəkmiş şəxsin hüquqi varisi zərər çəkmiş şəxs kimi eyni əsaslar üzrə xüsusi ittihamçı hüquqlarından istifadə edə və onun vəzifələrini daşıya bilər. Zərər çəkmiş şəxsin hüquqi varisinin şübhəli və ya təqsirləndirilən şəxslə barışmaq, xüsusi ittihamçı qismində cinayət təqibindən imtina etmək və zərər çəkmiş şəxsin verdiyi şikayətdən imtina etmək hüququ yoxdur. Zərər çəkmiş şəxsin hüquqi varisi şahid qismində dindirilə bilər.

Göründüyü kimi, AR CPM-in 106.1-ci maddəsində deyilir: «Hadisə nəticəsində ölmüş zərər çəkmiş şəxsin hüquq və vəzifələrini cinayət işi üzrə icraat zamanı həyata keçirmək istəyini bildirən yaxın qohumlarından biri zərər çəkmiş şəxsin hüquqi varisi hesab olunur». Fikrimizcə, bu normada da şəxsin ölüm anının differensiyasiya edilmədiyi üçün 87.2-ci maddə barədə bildirdiyimiz fikirlər 106.1-ci maddəsi üçün də keçərlidir. Yəni AR CPM-in 106.1-ci maddəsi də hər iki anlamda – həm maddi, həm də prosessual mənada çıxış edən «zərər çəkmiş şəxsin» yaxın qohumlarına münasibətdə davranış imkanı nəzərdə tutur. Lakin qanunverici bu normada 87-ci maddədən fərqli olaraq, cinayət hadisəsi deyil, hadisə terminindən istifadə etmişdir. Bununla bağlı da müxtəlif yanaşma özünü göstərə bilər. Hadisə termini cinayət hadisəsi anlayışına nisbətdə ümumi və xüsusinin nisbətindədir. Başqa sözlə, hadisə termini burada həm cinayət hadisəsini, həm də cinayət hesab olunmayan hadisəni əhatə edir. Belə olduğu halda, CPM-in 87.2-ci maddəsində qanunverici məhz cinayət hadisəsi nəticəsində zərərcəkmiş şəxs ölərsə, onun hüquqlarının yaxın qohumlara keçməsini ifadə edir. Yəni cinayət hadisəsi nəticəsində deyil, digər hadisə zamanı belə bir imkan istisna edilir.

## ƏDƏBİYYAT


1. Abbasova F.M. Cinayət prosesi. Ümumi hissə. Bakı: Zərdabi LTD, 2012.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq Yayın evi, 2013.
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: Hüquq Yayın evi, 2013.
4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / elmi red. C.H.Mövsümov və digərləri. Bakı: Digesta, 2007.
5. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Bakı: Qanun, 2008.
6. Mövsümov C.H. Sovet cinayət prosesi. Bakı: Maarif, 1989.
7. Анощенкова С.В Уголовно-правовое учение о потерпевшем / отв. ред.: Лопашенко Н.А. М.: Волтерс Клувер, 2006.
8. Вахрушев С.А. Потерпевший: уголовно-правовая и уголовно-процессуальная категория // Закон и право, 2002, №4.
9. Конев Р.Ю. Проблема определения понятия «потерпевший» в отечественной и зарубежной криминологии // Виктимологические проблемы борьбы с преступностью. Материалы Междисциплинарной конференции. г. Ставрополь, 6 декабря 2002 г.
10. Шаров Д.В. Понятие потерпевшего в уголовном судопроизводстве: проблемы и пути их решения // «Черные дыры» в Российском Законодательстве, 2006, №4.

## СУЖДЕНИЯ О ПОНЯТИИ ПОТЕРПЕВШЕГО В УГОЛОВНОМ ПРОЦЕССЕ

**М.С.ГАФАРОВ**

**РЕЗЮМЕ**

Правовое положение, а также защита и обеспечение прав и законных интересов потерпевших лиц являются важными вопросами уголовного судопроизводства как в теоретическом, так и в практическом плане. Вместе с тем, в отдельных статьях Уголовно-процессуального кодекса Азербайджанской Республики категория потерпевший используется в разных значениях. Если быть точнее, порой этот термин используется в сугубо процессуально-правовом, порой в сугубо уголовно-правовом значениях, а порой в одной и той же статье этот термин несет двоякое значение. В статье подчеркивается тот факт, что такой подход к понятию потерпевшего создает правовую неопределенность. Рассматривая разные аспекты понятия потерпевшего, автор разъясняет правовую природу термина потерпевший в отдельных статьях УПК АР. В статье, также дается доктринальное толкование отдельных норм УПК АР.

**Ключевые слова:** уголовный процесс, потерпевший, терминология, правовая неопределенность, анализ, доктринальное толкование

## JUDGEMENTS ABOUT THE CONCEPT OF VICTIM IN THE CRIMINAL PROCESS

**M.S.GAFAROV**

**SUMMARY**

The legal status and the protection and ensuring of the rights and legitimate interests of the injured persons are important questions of criminal legal proceedings both on theoretical, and practical levels. Specific articles of the Criminal Code of the Azerbaijan Republic use the category of victim in different values. To be more exact, sometimes this term is used in especially procedural-legal, sometimes in especially criminal and legal values, and at times in the same article this term bears double value. The article emphasizes that such approach to the concept of victim creates legal uncertainty. Considering different aspects of the concept of victim, the author explains the legal nature of the term “victim” in separate articles of the Criminal Procedural Code of AR. Doctrinal interpretation of separate standards of the Criminal Procedural Code of AR is also provided in the article.

**Key words:** criminal trial, victim, terminology, legal uncertainty, analysis, doctrinal interpretation